# ROBOTICS

(Bu müsabiqə Azərbaycan Respublikasının vətəndaşları üçün nəzərdə tutulub)

REV1

## 1. MÜSABİQƏNİN HƏDƏFLƏRİ VƏ FƏALİYYƏT SAHƏSİ

Müsabiqə insana gündəlik həyatda, kosmosda faydalı ola bilən və ya istehsalatda işinin müəyyən bir hissəsini yerinə yetirə bilən, günlük hər hansı bir işini sadələşdirən hətta əyləncəyə çevrilə bilən robotların dizaynını hədəfləyir. Robotlara müxtəlif növ mexaniki və ya pnevmatik əməliyyatları yerinə yetirmək üçün dizayn edilmiş, həmçinin materialın kinetik xüsusiyyətlərinə əsaslanan, öncədən proqramlaşdırılmış tapşırıqlar nəzdində fəaliyyət göstərən və ya süni intellekt tərəfindən idarə olunan, müxtəlif bort sensorları ilə yönləndirilən istənilən avtomatik qurğular daxildir.

## 2. FƏALİYYƏT SAHƏSİ

Robototexnika komanda işi və əməkdaşlıq üçün böyük fürsətlər təklif edir. Bu, tələbələrə problemin həlli yolunda qarşılıqlı informasiya mübadiləsi aparmağa, düşünməyə və beyin fırtınası etməyə şərait yaradır, tələbələri daha öncə üzərində heç düşünmədikləri karyera yolları ilə tanış edir. Robotlar ilə işləmək CDIO-da yaradıcılıq qabiliyyətini artırır və mühəndislik sahəsində təməl ünsiyyət, ərtaf mühitə uyğunlaşma bacarığı, komanda və layihə işinin inkişafını təşviq edir.
Müsabiqə, robototeknika sahəsində innovasiyaları inkişaf etdirməyi və onlara konkret tapşırıqların yerinə yetirilməsinin öyrədilmə metodunu təkmilləşdirməyi, robotlar və robotexnika üçün dizayn prosedurunu sadələşdirməyi, ətraf mühiti dərk etməyi və proqramlaşdırılmış tapşırıqları icra etməyi və ya süni intellekt əsasında müstəqil alınacaq qərarları öyrətməyi hədəfləyir. Müsabiqə aşağıda göstərildiyi kimi, insan həyatının çox çeşidli sahələrində robotların və robototexnikaların geniş istifadəsinə dair ideyaların həyata keçirilməsini əhatə etməlidir.

- Sənaye robotları (istehsal)
- Məişət robotları (təmizlik, yemək bişirmə təhlükəsizlik və s.)
- Hər növ insanabənzər robotlar
- Hər növ çevik mobil robotlar
- Kosmik robotlar (Mars və Ay kosmik gəmiləri)
- Ortaq işləyən robotlar
- Nəqliyyat robotları
- Mexatronik robotlar
- Robotik qol
- Animatronik əl
- Səslə idarə olunan robotlarc
- Jest jestulyasiya ilə idarə olunan ) əsaslı robotlar

## 2. MÜSABİQƏDƏ İŞTİRAK ŞƏRTLƏRİ

Müsabiqə açıqdır:
A kateqoriyası – orta məktəb şagirdləri
B kateqoriyası – Azərbaycanda təhsil alan universitet tələbələri

- Orta məktəb komandaları məsləhəçi təyin etməlidir. Məsləhətçi kimi fəaliyyət göstərəcək şəxsin məsləhətçi vəzifələrini yerinə yetirəcəyinə dair sənəd yerindəcə imzası ilə Ön Qiymətləndirmə Hesabatıyla birlikdə sistemə yüklənməlidir.
- Məsləhətçi komandanı son mərhələyə qədər dəstəkləməyi və son mərhələdə komandanın yanında olmağı öhdəsinə götürür. Layihələrdə son mərhələdə olan ibtidai, orta və yuxarı sinif məktəb komandalarının məsləhətçiləri ilə birlikdə mütləq şəkildə yerlərində olmağı şərtdir.
- Orta sinif məktəb komandaları öz məsləhətçiləri vasitəsilə müraciət edəcəklər.
- Müsabiqənin istənilən mərhələsində hiyləgərlik qadağandır. Layihə təklifləri iştirakçılardan qaynaqlanmalıdır. Oxşar və təqlid edilən layihələr müsabiqədən kənarlaşdırılacaq. Əgər iştirakçı öncədən oxşar layihə ilə digər bir müsabiqədə iştirak edibsə, onun iştirak etdiyi layihənin bütün təfərrüatları (tarix, yer, təşkilatçı, nəticə) təşkilatçılara təqdim edilməlidir.
- Hər bir layihə üçün ayrıca müraciət forması doldurulmalıdır.
- Bütün kateqoriyalar və təhsil səviyyələri üçün ən çox 6 nəfərdən ibarət komandalar təşkil edilməlidir. (Bu saya məsləhətçi daxil deyil) Məsləhətçi komanda üzvü kimi əlavə edilməməlidir. Hər bir komandanın məsləhətçisi ola bilər.
- Finala çıxan komandalar üçün nəqliyyat və qonaqlama dəstəyi məhduddur. Dəstək göstəriləcək şəxslərin sayı daha sonra Türkiyə T3 Fondu və Teknofest Azərbaycan Müsabiqələr Komitəsi tərəfindən komandalara bildiriləcək.
- T3 Fondu və Teknofest Azərbaycan festival ərazisində olacaq üzvlərin sayını məhdudlaşdırmaq səlahiyyətinə malikdir. Məhdudiyyət olduğu halda, məlumat komitə tərəfindən veriləcəkdir.
- Eyni layihə ilə yalnız bir kateqoriya və ya bir müsabiqəyə müraciət edilə bilər. Teknofest Azərbaycan çərçivəsində təşkil edilən fərqli müsabiqələrə və ya fərqli kateqoriyalara müraciət edən komanda və ya şəxslərin müraciətləri etibarsız sayılacaq.
- Eyni komandanın üzvləri Teknofest Azərbaycan çərçivəsində təşkil edilən müsabiqələrə müxtəlif layihələrlə müraciət edə bilərlər.
- Orta məktəb şagirdlərindən ibarət komandalar (A) öz aralarında, universitet tələbələri və məzunlardan ibarət komandalar (B) öz aralarında, ayrı fərdlərdən ibarət komandalar (C) isə öz aralarında rəqabət aparacaqlar. İştirakçı müraciət

etməzdən öncə müsabiqə ilə əlaqədar bütün izahatları və iştirak şərtlərini oxuyub təsdiq etməklə müsabiqəyə qatıla biləcək.

- Avadanlıq üçün 700 $ məbləğinədək texniki dəstək təşkilatçılar tərəfindən təmin ediləcək.

Namizədlər yuxarıda qeyd edilən bütün şərtləri qəbul etmiş sayılırlar.

## 3. MÜRACİƏT QAYDALARI

Müraciətlər Aviasiya, Kosmik və Texnologiya Festivalı Teknofest Azərbaycanın rəsmi internet saytı üzərindən qəbul ediləcək. (www.teknofest.az).

Müraciət forması 28.02.2022-ci il tarixinə qədər doldurulmalıdır.

### 3.1. Orta məktəb şagirdləri üçün (A kateqoriyası):

Müraciət formasında:
- İştirakçının adı, soyadı, təhsil aldığı məktəbin adı, şöbənin adı və əlaqə məlumatları
(e-poçt ünvanı, telefon nömrəsi), digər qrup üzvlərinin məlumatları (adları, şöbənin adı və əlaqə məlumatları), layihənin adı, kateqoriyası və komandanın adı əlavə olunmalıdır.
- Məsləhətçi haqqında məlumat müraciət zamanı alınacaq.

### 3.2 Universitet tələbələri üçün (B kateqoriyası):

Müraciət formasında;
- İştirakçının adı, soyadı, təhsil aldığı universitetin adı, fakültəsi, şöbənin adı və əlaqə məlumatları (e-poçt ünvanı, telefon nömrəsi), komandanın adı digər qrup üzvlərinin məlumatları ilə birlikdə əlavə olunacaq (adları, universitet, fakültə, şöbənin adı və əlaqə məlumatları), layihənin adı, kateqoriyası və komandanın adı əlavə olunmalıdır.
- Məsləhətçi haqqında məlumat müraciət zamanı alınacaq.

## 4. VAXT QRAFİKİ, XAL HESABI VƏ QİYMƏTLƏNDİRMƏ

**Cədvəl 1: Vaxt qrafiki**

| TARİX | MÜNDƏRİCAT |
|---|---|
| 28.02.2022 | Müsabiqəyə Müraciət üçün son tarix |
| 09.03.2022 | İlkin Layihə Hesabatı və Tədarük Tələbi |

| | |
|---|---|
| 12.03.2022 | İlkin mərhələdən keçən Komandaların elanı |
| 15.05.2022 | Layihə üzrə Təfərrüatlı Video Hesabatın Son Tarixi |
| 22.05.2022 | Finala yüksələn komandaların elanı |
| 26-29 May | TEKNOFEST AZƏRBAYCAN 2022 |

Qiymətləndirmə: Layihənin İlkin Qiymətləndirmə Hesabatı və Layihə Təlimatı Videousu, Layihə üzrə Təfərrüatlı Hesabat və bir də müsabiqənin xal üzərindən qiymətləndirilməsi kimi üç fərqli mərhələdə hazırlanacaq. Layihənin İlkin Qiymətləndirmə Hesabatı, tanıtım videosu və Layihə üzrə Təfərrüatlı Hesabat fayllarını təqdim etməyən komandalar müsabiqədə iştirak edə bilməyəcəklər.

### 4.1. Layihənin İlkin Qiymətləndirmə Hesabatı

Komandalar müsabiqə təqvimində qeyd olunan tarixdə Layihənin İlkin Qiymətləndirmə Hesabatını təqdim etməlidirlər. Layihənin İlkin Qiymətləndirmə Hesabatlarının təqdim edilməsi ilə bağlı ətraflı məlumat müsabiqənin son müraciət tarixindən sonra müraciət formasını tamamlamış komandalarla paylaşılacaqdır. Layihənin İlkin Qiymətləndirmə Hesabatlarının nəticələrinə əsasən ön seçimlər aparılacaq. İlkin Qiymətləndirmə hesabatının nümunəsini internet saytından əldə edə bilərsiniz. İlkin qiymətləndirmə nəticəsində ikinci mərhələyə keçən komandalar müsabiqə təqviminə görə müəyyən edilmiş tarixdə elan olunacaqlar. Layihənin İlkin Qiymətləndirmə Hesabatında nəzərə alınmalı məsələlər:

### 4.2. Müsabiqədən xarix olma kriteriyaları

Müraciət prinsiplərinə uyğun olaraq Saytda bizə təqdim olunan layihələr aşağıdakı meyarlar nəzərə alınmaqla öncədən yoxlanılacaq.

**İnnovativ-Orijinal:** Layihənin artıq həyata keçirilmiş digər layihələrlə oxşarlığının olub-olmaması yoxlanılacaq.

- Bənzər məhsullar və ya layihələr var mı?
- Layihədə orijinallıq əsas məqamlardan biridir?

**Problemlərə/Ehtiyaclara Həll yolu Yaratmaq:** Biz təhsil sahəsindəki problemin nə olduğuna, layihə ideyasının cəmiyyətdə necə və hansı dərəcədə həll yolu

yaradacağına və ideyanın bu həlli dəstəkləyib-dəstəkləməməsinə baxacağıq.

- Layihə ideyam təhsildə hansı problemə həll yolu yaradır?
- Layihə tətbiq oluna və həyata keçirilə bilərmi?
- Layihə ideyam hansı tələb üçün yaradılıb?

**Layihə İdeyasının Hədəf Qrupu:** Layihənin kim və ya hansı hədəf qrupu üçün istifadə olunacağı qeyd olunmalıdır.

### 4.2.1. Layihənin Təqdimat Videosu

Komandalar Müsabiqə Təqviminə əsasən qeyd edilən tarixdə Layihə üzrə İlkin Qiymətləndirmə Hesabatlarını və Layihənin Təqdimat Videolarını təqdim etməlidirlər. Layihənin Təqdimat videosunda komanda, layihə ideyası, layihəni zəruri edən problem/problemlər, problemin həlli yolu və metodu öz əksini tapmalıdır. Video vizual alətlər, avadanlıq və materiallarla dəstəklənə bilər. Layihənin təqdimat videosu link olaraq sistemə yüklənməlidir. O YouTube, Vimeo və ya Google Drive linki kimi paylaşıla bilər.

**Videonun əksetmə qabiliyyəti ən azından 720p, ümumi müddəti minimum 1.5 dəqiqə, maksimum 2 dəqiqə olmalıdır. Video telefon vasitəsilə çəkilə bilər.**

### 4.3. Layihə üzrə Təfərrüatlı Hesabat

Layihə üzrə Təfərrüatlı Hesabat (PDR) mərhələsinə keçən komandalar Layihə üzrə Təfərrüatlı Hesabatları Müsabiqə Təqvimində qeyd olunan tarixdə təqdim etməlidirlər. Layihə üzrə Təfərrüatlı Hesabat; Təhlil, Dizayn, İnkişaf, Sınaq və Tətbiq etmə (inteqrasiya və canlı fəaliyyətlərə keçid) daxil olmaqla Layihənin İnkişafı proseslərini, həmçinin Layihə Büdcəsini, Layihə Planını (layihə təqvimi) və Layihənin fəaliyyət sahəsini təfərrüatlandıran hesabat olmalıdır. Layihə üzrə Təfərrüatlı Hesabatın nümunələri son müraciət tarixindən sonra Teknofest Azərbaycan saytında elan olunacaq. PDR-in nəticələrinə görə maliyyə dəstəyi almaq hüququ olan komandalar Müsabiqə Təqvimində müəyyən edilmiş tarixdə elan ediləcək.

### 4.3.1. Layihə üzrə Təfərrüatlı Hesabat Kriteriyaları

**İnnovativ-Orijinal:** Layihənin artıq həyata keçirilmiş digər layihələrlə oxşarlığının olub-olmaması yoxlanılacaq.

- Bənzər məhsullar və ya layihələr var mı?

- Yeni texnologiya, dizayn və xidmət təklif edirmi?
- Layihənizi bazardakı oxşar məhsullardan fərqləndirən nədir?

**Problemlərə/Ehtiyaclara Həll yolu Yaratmaq:** Layihə ideyasının cəmiyyətdə hansı problem yaradacağı, hansı növ həll yolunu dəstəkləyəcəyi və təklif olunan ideyanın bu həlli dəstəkləyib-dəstəkləmədiyi layihələr yoxlanılacaq.

- Which problem of education does my project idea solve?
- Mövcud həllər niyə tələblə cavab vermir?
- Layihə yerli və regional problemin həll yolunu təmin edir və ya köməklik göstərirmi?

**Metod:** Layihənizə uyğun bir həll yolu yaradarkən istifadə etdiyiniz üsullara baxacağıq.

- Layihənizdə hansı tədris yanaşması, metod və texnikalardan istifadə edirsiniz?
- Layihənizdə hansı növ dizayn modellərindən istifadə edirsiniz?

**Texnika:** Layihənizə uyğun bir həll yolu yaradarkən istifadə etdiyiniz üsullara baxacağıq.

- Hansı elmi və/və ya texniki proqramlar üzrə həll yolu təklif edirsiniz? Onların əsas prinsipləri hansılardır?
- Layihənizin vizual (2D) və/və ya prototipi varmı?

**Həyata keçirmək bacarığı / Tətbiqi:** Layihənin həyata keçirilməsinin mümkünlüyü də milli resurslar qədər araşdırılacaq.

- Layihəniz məktəblərdə, universitetlərdə və ya böyüklərin təhsili üçün istifadə edilə bilərmi?
- Layihəniz mövcud məhsullarla asanlıqla inteqrasiya oluna bilərmi?
- Təklif olunan layihə texnoloji kommersiya məhsuluna çevrilə bilərmi?

**Təxmini Maliyyət**: Layihənin təxmini və ən az maliyyətinin tətbiq edilib-edilməməsi yoxlanılacaq. Məhsulun dizaynı, istehsalı və sınaq prosesləri, istehsal üçün büdcə planlaması və istifadə olunacaq materialların siyahısı da daxil olmaqla vaxt cədvəli hazırlanacaq.

● Layihə ən az maliyyətlə necə inkişaf etdirilə bilər?

● Layihə planına uyğun olaraq hansı maliyyə xərclərinin hansı dövrdə ediləcəyi haqqında sizə məlumat verilibmi?

Layihə üçün maliyyət hesablaması aparılırmı? Bənzər layihələrlə qiymət müqayisəsi aparılıbmı?

**Layihə İdeyasının Hədəf Qrupu:** Layihədən kimin istifadə edəcəyi və bu layihəyə kimin müraciət edəcəyi əgər burada qeyd olunubsa yoxlanılacaq.

● Məhsul və ya prosesin hədəf auditoriyası kim və yaxud kimlərdir?
● Əgər məhsulla əlaqədar problem varsa həmin problemlə qarşılaşan insanların tanımlanması edilirmi?

**Risklər:** Layihəyə mənfi təsir göstərəcək elementlərin (risklərin) olub-olmaması yoxlanılacaq.

• Layihəyə mənfi təsir göstərəcək amillərin (risklərin) müəyyən edilib-edilməməsi yoxlanılacaq.
• Layihənin icrası zamanı müəyyən olunmuş problemlər təyin edilibmi?

Yuxarıda sadalanan maddələrdən başqa, Müsabiqə üzrə Məsləhət Şurası məqsədəuyğun hesab etdiyi təqdirdə müxtəlif meyarlar əlavə edə bilər. Əlavə edilən meyarlar hesabat nümunəsində göstəriləcəkdir.

### 4.4. Müsabiqə Ballarının Hesablanması

Müsabiqədə balların hesablanması iki hissədən ibarətdir. Birinci hissə hesabatın, ikinci hissə isə prototipləmə və vizual təqdimatın qiymətləndirilməsindən ibarətdir. Hesabatın qiymətləndirmə növləri və faizləri aşağıdakı cədvəldə verilmişdir. Hesabat balları ümumi balların 30%-ni təşkil edəcək.

**Cədvəl 2: Hesabatın Paylanması**

| Hesab növü | Hesab faizi |
|---|---|
| Layihənin İlkin Qiymətləmdirilmə Forması | 10 % |
| Layihə üzrə Təfərrüatlı Hesabat | 20 % |
| Prototip və Təqdimat Qiymətləndirilməsi | 70 % |

**<u>Prototip və Təqdimat balı</u>**

Hər bir finalçı və layihə müvafiq kateqoriya üzrə peşəkarlar tərəfindən təşkil olunuş müvafiq münsiflər heyəti tərəfindən qiymətləndiriləcəkdir. Namizədlər münsiflər heyəti üçün prototipin nümayişini hazırlamalıdırlar.

Prototip maddi məhsul və ya layihənin prosesidir. Əgər o reallaşarsa, layihənin təməl forması olardı. Buraya proqram prototipinin funksional imkanlarını göstərən ekran görüntüləri və ya ekran şəkilləri, eləcə də cizgi filmlərindən, legolardan və s.-dən hazırlanmış funksional funksional aparat prototipləri daxil ola bilər.

Müsabiqə mühitinin tələbləri, prototiplərin sərgisi və vizual təqdimatlar haqqında təfərrüatlı məlumat finalist komandalar müəyyən edildikdən sonar finalçılar ilə paylaşılacaqdır.

Final mərhələsində komandaların vizual təqdimatlar üçün posterlər hazırlaması zəruridir, poster ölçüsü və məzmunu haqqında məlumat sentyabr ayında T3 Fondu və Teknofest Azərbaycan tərəfindən veriləcək.

Son dəyərləndirmələrə əsasən, finalçıların yekun reytinqi Teknofest Azərbaycan Müsabiqəsinin finalından sonra https://www.teknofest.az saytında elan olunacaq.

## 5. MÜKAFATLAR

Müsabiqənin üç mərhələsində öz kateqoriyası üzrə ayrı bir qiymətləndirmə ilə seçim nəticəsində qalib olan komanda final mərhələsində pul mükafatı ilə təltif olunacaq. Aşağıdakı cədvəldə qeyd edilən mükafatlar ona layiq görülmüş komandalara veriləcək ümumi məbləği göstərir, fərdi mükafatlar nəzərdə tutulmayıb. Birinci, ikinci və üçüncü yerlərin mükafatları Komanda Üzvlərinin ümumi sayına uyğun olaraq bərabər məbləğlərə bölünəcək və hər bir şəxsin bank hesabına köçürüləcək. Müsabiqə çərçivəsində qalib olacaq komandanın məsləhətçisinə ödəniş ediləcək. İlk üç sıraya daxil olacaq komandaların məsləhətçilərinə 700 AZN məbləğinədək xüsusi pul mükafatına layiq görüləcək.

**Cədvəl 3: Mükafatlar**

| Kateqoriya | A-Kateqoriyası | B-Kateqoriyası | Məsləhətçi |
|---|---|---|---|
| **1-ci yer** | 4 000 AZN | 6 000 AZN | 700 AZN |
| **2-ciyer** | 2 000 AZN | 4 000 AZN | 500 AZN |
| **3-cü yer** | 1 000 AZN | 2 000 AZN | 300 AZN |

### 5.1. Mükafat Sıralaması üçün Minimum Uğur Meyarları:

Müsabiqədə mükafat sıralamasına daxil olmaq üçün komandalar təsnifatdan yayınmalıdırlar. Yalnızca mükafat sıralamasına daxil olanlar o mükafatları əldə etməyə haqq qazanacaqlar.

## 6. ÜMUMİ QAYDALAR

- Komandalar öz komanda rəhbərləri vasitəsilə müvafiq hakimə etiraz etmək hüququna malikdirlər. Etiraz daha sonra yazılı şəkildə təqdim edilmək şərtilə şifahi olaraq verilə bilər. Şifahi etirazlar 24 saat ərzində yazılı şəkildə bildirilməlidir. İstənilən halda, yazılı olmayan etirazlar nəzərə alınmayacaq. Etirazlar hakimlər heyəti tərəfindən araşdırıldıqdan sonra 72 saat ərzində yekunlaşdırılacaq.
- Qiymətləndirmənin nəticələri elan edildikdən sonra komanda rəhbərlərindən öz etirazlarını və əsaslandırmalarını yazılı şəkildə təqdim etmələri tələb olunur. Etirazlar contest@technofest.az saytından qəbul edilməlidir.
- Etiraz prosesi müsabiqənin nəticəsi elan olunduqdan sonra bir həftə - 7 gün ərzində aparılmalıdır. Əks halda etirazlar nəzərə alınmır.
- Məsləhətçinin rolu; tələbələrə öz təhsillərini planlaşdırmağa kömək etmək, onları akademik, sosial və mədəni məsələlərdə istiqamətləndirmək, bütövlükdə tələbə şəxsiyyətinin psixi, sosial və emosional aspektləri ilə bir bütün olaraq inkişafın uyğun mühitin hazırlanmasına kömək etmək və s. vəzifə və xidmətlər. Komandada məsləhətçinin rolu layihədə lazım olacaq akademik dəstəyi təmin etmək, komanda üzvlərinə problemlərinin həlli yollarını tapmaq üçün istiqamət verməkdir.
- Müsabiqənin predmeti olan ideya işi komanda üzvü ilə birlikdə ərsəyə gələ bilər və bu ideya yalnızca komandaya məxsusdur, məsləhətçi bu mərhələdə ideyanın sahibi kimi qəbul edilməyəcək.
- Saytımızda ötən illərin hesabatlarında faydalanan komandalarımız istinad edilən cümlədən sonra sitat ifadəsini əlavə etməlidirlər. İstifadə edilən format "İstifadə olunan ifadələr (İl, Müsabiqənin Adı, Kateqoriya, Komandanın adı) Nümunə Sitat: "Zəlzələ qurbanının dağıntı içərisində yerinin təyin olunmaması onlar üçün dağıntıların çıxarılmasını və axtarışını ləngidən ən mühüm problemdir." (2020, İnsanlıq üçün Texnologiya, Fəlakətlərin İdarə Edilməsi, X komandası)
- Hər bir iştirakçı lazımi ehtiyat tədbirlərini görməklə, öz həmyaşıdlarına və ətraf mühitə gözlənilən diqqəti göstərməklə mükəlləfdir.
- T3 Fondu və Azərbaycan Teknofest müsabiqənin müəyyən edilmiş qərəzsiz meyarlara uyğun olaraq keçirilməsi məqsədilə hər bir pozuntunun məhkəmə qərarı ilə nəticələnməsi və bütün tələblərə daha yaxşı cavab verməsi üçün spesifikasiyalara hər hansı düzəliş etmək hüququnu özündə saxlayır, lazımi təhlükəsizlik tədbirlərini təmin etmək və müsabiqə spesifikasiyalarının funksionallığını qorumaq.
- Son müraciət tarixindən sonra lazımi qiymətləndirmələri edən T3 Fondu və

təşkilat komitəsi, tələb olunan texniki bilik və bacarıqlara sahib kifayət qədər müraciətin əldə edilmədiyini nəzərə alaraq müsabiqəni ləğv etmək hüququnu özündə saxlayır.

- Teknofest Azərbaycan Mühafizə və Təhlükəsizlik Qayda və Şərtləri bütün müsabiqə iştirakçılarına, nümayəndə heyətlərinə və bununl maraqlanan tərəflərə bildiriləcək. Yarışan bütün komandalar Teknofest Azərbaycan Mühafizə və Təhlükəsizlik Qayda və Şərtlərində göstərilən, müvafiq kateqoriyalara xas olan təhlükəsizlik qaydalarına və şərtlərinə riayət etmək üçün məsuliyyət daşıyırlar. Bununla əlaqədar olaraq, təhlükəsizlik təlimatlarında öz əksini tapan təhlükəsizlik tədbirləri istisna olmaqla, istifadə edilən sistemlərdən qaynaqlanan əlavə tədbirlərin alınması iştirakçıların məsuliyyətindədir.
- T3 Fondu və Teknofest Aərbaycan təşkilat komitəsi müsabiqənin keçirilməsi məqsədilə təhlükəsiz mühiti təmin etmək üçün Teknofest Azərbaycan Mühafizə və Təhlükəsizlik Qayda və Şərtlərini yerinə yetirməyən istənilən şəxs və komandanı müsabiqədən kənarlaşdırmaq hüququna malikdir. Müsabiqə iştirakçıları, nümayəndə heyətləri tərəfindən şərtlərin pozulması nəticəsində yaranan zərərə görə fond və təşkilatın vəzifəli şəxsləri məsuliyyət daşımır.
- Müsabiqə ilə əlaqədar olaraq iştirakçı, T3 Fondu və ya Teknofest Azərbaycan tərəfindən müsabiqədən öncə və sonra ediləcək hər cür yazılı və vizual tanıtım, nəşr, sosial şəbəkə və internet yayımlarını qəbul edir və buna razılıq verir. Bundan əlavə iştirakçı dizaynlar, kodlar və istehsal olunmuş məhsullar daxil lakin bunlarla məhdud olmamaq üzrə müsabiqə ilə əlaqədar ərsəyə gələn hər bir əqli mülkiyyət yalnız T3 Fondu və Teknofest Azərbaycana məxsusdur və iştirakçı bu artefaktlar üzərində hər hansı bir haqq və ya tələb hüququna sahib deyil. T3 Fondu və Teknofest Azərbaycan bütün əqli mülkiyyəti müvafiq hesab etdiyi şəkildə ictimai istehlak üçün açıqlama hüququnu özündə saxlayır.
- İştirakçının hər hansı məhsulun əqli mülkiyyət hüquqlarını pozması və T3 Fondu /və ya Teknofest Azərbaycan-a zərər verməsi vəziyyətində, bütün bu zərərlərin məsuliyyəti tamamilə iştirakçılara aiddir.
- Müsabiqədə iştirak etmək hüququ qazanan bütün komandalara İştirakçı Sertifikatı veriləcək.

## 7. ETİK QAYDALAR

- Festival ərazisində və ya yarışma prosesində (hesabat mərhələləri, qiymətləndirmə prosesi və s.) ictimai əxlaqa zidd hal, hərəkət, çıxış və s. edən şəxslər təcili olaraq hüquqi proses başlanacaq və komanda T3 Fondunun hər cür yarış və fəaliyyətlərində ən az 2 il iştirak etməmək şərtilə bütün komanda

kənarlaşdırılacaq.

- T3 Fondu və Teknofest Azərbaycan Müsabiqə Komitəsi ilə ünsiyyətdə istifadə olunan dildə nəzərə alınmalı məqamlar aşağıdakılardır

- Kobud və nəzakətsiz söz və davranışlardan çəkinmək lazımdır,
- Təhqir, təhdid və yalnış sözlərdən çəkinmək lazımdır,
- E-mail, facebook, skype, messenger, whatsapp, twitter və s. kimi sosial şəbəkə üzərindən birbaşa hədəf göstərmək və təhqir etməkdən çəkinmək lazımdır, Müraciət və etirazlarınızda orfoqrafiya qaydalarına, üsluba diqqət yetirmək lazımdır.

- Festival ərazisində digər komandaların fəaliyyətinə və motivasiyasına təsir edəcək vəziyyətlər, hərəkətlər, sözlər və s. nümayiş olunmamalıdır.
- Qonaqlama xidmətlərinin göstərildiyi yataqxana və onun ətrafında sosial əmin-amanlıq nəzərə alınmalıdır. Əks halda həmin şəxs haqqında məhkəmə prosesinin başlanması müvafiq qurumlar tərəfindən həyata keçiriləcək.
- Layihə və məhsulun hazırlanması prosesində hər cür axsaqlıqları nəzərə alaraq lazımi avandanlıq və materialların öncədən ehtiyatını depolamaq/saxlamaq, baş verəbiləcək axsaqlıqlar zamanı hissləri dəyişdirmək komandanın məsuliyyətidir. Digər komandadan məhsul tədarükü təmin edilməməlidir.
- Dil, din, fəlsəfi inanc, siyasi fikir, irq, yaş və cins ayrı-seçkiliyi qoyulmadan, festival ərazisində bərabər imkanlara mane olan davranış və hallara yol vermədən, T3 Fondu və Teknofest Azərbaycan tərəfindən təklif olunan bütün növ xidmətlərdə tələblərə uyğun olaraq tərəfsiz davranmağa diqqət yetirilməlidir.
- T3 Fondu, Teknofest Azərbaycan və digər şirkət, müəssisə, təşkilata aid mal və resurslardan təyinat və xidmət tələbləri xaric istifadə etməməyə və onları israf etməməyə diqqət yetirmək lazımdır.
- Festivalın fəaliyyətini asanlaşdırmaq, ehtiyaclarını ən səmərəli, sürətli və verimli bir şəkildə qarşılamaq, xidmət keyfiyyətini və festival məmnuniyyətini artırmaq üçün keçirilən fəaliyyətlərə dəstək vermək lazımdır.
- Festival ərazisində iştirakçıların performanslarına təsir edən və ya təsir edirmiş kimi görünən qohumlarına, dostlarına, və ya təmasda olduqları şəxslərə və ya təşkilatlara verilən hər cür mənfəət, maliyyə yardımı və ya digər öhdəliklərə, şəxsi maraqlara qarşı diqqətli olmaq lazımdır, öz vəzifələrini qərəzsiz və obyektiv şəkildə yerinə yetirmək və maraqların toqquşmasının qarşısını almaq üçün lazımi tədbirlər görülməsi də öz növbəsində zəruridir.
- T3 Fondu və Teknofest Azərbaycannın bina və nəqliyyat vasitələrindən və

digər ictimai resurslardan istifadə edərkən israfçılığa yol verməmək, iş vaxtından, resurslardan, əmək və obyektlərdən istifadə edərkən səmərəli və qənaətcil fəaliyyət göstərmək lazımdır.

- T3 Fondu və Teknofest Azərbaycan komandasının üzvləri fəaliyyət zamanı öz öhdəliklərinə görə cavabdeh olmalı, korporativ qiymətləndirmə və nəzarətə açıq və hazır olmalı, məsləhətçilər məqsəd və hədəflərə uyğun olmayan davranış və korrupsiyanı önləmək üçün lazımi tədbirlər görməli, etik davranış prinsipləri mövzusu öyrədilməli, bu prinsiplərə əməl edilib-edilməməsi izlənməli və etik davranışa dair təlimatlar verilməlidir.
- Komanda üzvləri öz vəzifələrini yerinə yetirərkən çalışdıqları qurumlarla bağlı hər hansı öhdəlik, vəd və ya cəhdlər etməməli, aldadıcı və həqiqətə uyğun olmayan açıqlamalar verməməlidirlər.

## 8. MƏSULİYYƏT BƏYANNAMƏSİ

Türkiyə Texnologiya Komandası Fondu və Teknofest Azərbaycan hər hansı bir elan, iştirakçı və ya diskvalifikasiya nəticəsində yaranan ziyan və zərərə görə heç bir şəkildə məsuliyyət daşımır. Türkiyə Texnologiya Komandası Fondu və Teknofest Azərbaycan sistemlərin Azərbaycan Respublikasının qanunları çərçivəsində işləməsini təmin etmək üçün məsuliyyət daşımır. Müsabiqə iştirakçılarının üçüncü şəxslərə vurduğu ziyana görə Türkiyə Texnologiya Komandası Fondu və Teknofest Azərbaycan həmçinin təşkilatın vəzifəli şəxsləri məsuliyyət daşıya bilməzlər.

**Türkiyə T3 Fondu və Azərbaycan Respublikası Rəqəmsal İnkişaf Nəqliyyat Nazirliyi yuxarıda qeyd olunmuş müsabiqə qaydalarında və onun razılaşdırılmış bütün spesifikasiyalarında hər hansı dəyişiklik etmək hüququna sahibdir.**